# Azərbaycan Dmitri Yermakovun fotoşəkillərində

---

# *Azerbaijan in Photos by Dmitri Yermakov*

***Bakı 2020***

Azərbaycan Milli Elmlər Akademiyası
Milli Azərbaycan Tarixi Muzeyi

Azerbaijan National Academy of Sciences
National Museum of History of Azerbaijan

*Milli Azərbaycan Tarixi Muzeyinin 100 illiyinə həsr olunur*

---

*Dedicated to the 100th anniversary of the National Museum of History of Azerbaijan*

Elmi redaktor:
*akademik Nailə Vəlixanlı*

Mətn:
*Fikrət Bağırov*

Dizayn:
*Aynurə İsmayılova*

Tərcümə:
*İlkin Kəngərli*

Science editor:
*Academic Naila Vəlikhanli*

Text:
*Fikrat Bagirov*

Design:
*Aynura İsmayilova*

Interpreter:
*İlkin Kangarli*

1845-ci ildə Qafqaz canişini qraf M.S.Vorontsov Odessadan Tiflisə köçəndə bir çox məmur, sənət adamı və ədibi də özü ilə gətirmişdi. Onların arasında italyan memarı Luici Kambiacio da var idi. Rusiyada o, həm də Lüdviq Valentinoviç adı ilə tanınmışdı. Odessada bu italiyalı mütəxəssisin layihəsi ilə bir neçə bina inşa edilmişdi. 1849-cu ildə Luici Kambiacioya Şamaxı quberniyasının memarı vəzifəsi həvalə edildi. Sonra isə o, yenidən Tiflisə gəlib, 1870-ci illərədək ixtisası üzrə çalışdı. Burada, Luici, atası avstriyalı, anası gürcü olan bir qızla nikah bağladı. Fotoqraflıq sənətində şöhrət qazanan Dmitri İvanoviç Yermakov 1845-ci ildə bu ailədə dünyaya gözlərini açdı. Amma həmin izdivacın ömrü qısa oldu. Boşanmadan sonra gənc ana oğlu ilə birlikdə Rusiyaya köçüb, yeni ailə quraraq, övladına ögey atasının soyadını verdi. Mahir sənətkar da bu adla tanındı.

Çox keçmədən D.Yermakov yenidən Tiflisə qayıdaraq, orada I klassik oğlan gimnaziyasını bitirdi. Bəzi məlumatlara görə o, hərbi topoqrafiya məktəbində də təhsil almışdır. Təsadüfi deyil ki, D.Yermakov 1877-78-ci illər Rusiya-Türkiyə müharibəsi zamanı Qafqaz ordusu qərargahının müxbiri olaraq, ön və arxa cəbhədə fotoşəkillər çəkirdi.

XIX əsrin 60-cı illərində D.Yermakov Tiflisdə yeni yaradılan və çox keçmədən bu şəhərin ən mühüm mədəni təsisatlarından birinə çevrilən Qafqaz Muzeyi ilə əməkdaşlıq edirdi. Həmin dövrdə o, fotoqrafiya sənətinə meyl göstərib bu sahədə təcrübə qazanmağa başladı. Elə bu zaman o, Balkanlardakı Lüblyana şəhərindən Tiflisə köçən rəssam Pyotr Kolçinlə birgə fotoatelye açdı. 1870-ci ildə isə həmin müəssisənin təkbaşına sahibi oldu. Onun atelyesinin filialı Kislovodskda da fəaliyyət göstərirdi.

Lakin əyalət həyatının məişəti əsl sənətkarı razı sala bilməzdi. Sənətinin hüdudlarını genişləndirmək, mövzularını zənginləşdirmək məqsədilə o, qərib elləri-obaları gəzməyi qərara aldı.

In 1845, when the viceroy of Caucasus Count M.S. Vorontsov had moved to Tiflis from Odessa, he was accompanied by many civil servants, artists and writers. One of those people was Luigi Caribaggio – an Italian architect, also known as Ludwig Valentinovich, author of several buildings erected in Odessa. In 1849, Luigi Caribaggio had been appointed to the position of the principal architect of Shamakhi, but later returned to Tiflis and continued his work until eighteen seventies. In Tiflis, Luici had married a Georgian girl with Austrian descent. In 1845, a child named Dmitri was born unto them. Unfortunately, the family turned out to be unhappy. After getting divorced, the young mother moved with her child to Russia, where she remarried and gave Dmitri the surname of her new spouse – Ivan Yermakov. Name of Dmitri Ivanovich Yermakov was destined to become renowned as famous photographer in the future.

A few years later D. Yermakov returned to Tiflis, where he took complete course at the I Classical Boys' School. According to some sources, after graduating from the school he also studied at the military topographic school.

It is no surprise that, having attended the Russo-Turkish War of 1877-78, D. Yermakov served as correspondent to the Russian Caucasus Army headquarters, taking photos both on the front line and in the rear.

In 1860's Yermakov cooperated with Caucasian Museum which had been recently opened in Tiflis, and shortly became one of the town's key cultural facilities. During that period Dmitri had got passionate about photographic art, took his first photos and opened a photographic studio together with Petr Kolchin – Balkan painter from Ljubljana who had moved to Tiflis. In 1870, Dmitri became the studio's only owner and opened the branch in Kislovodsk.

However, soon picturing the provincial life had become too little for the real artist. In order to expand horizons and enrich thematic coverage of his arts, Dmitri decided




XIX əsrin 70-ci illərində səyahətə çıxdığı ilk ölkə qonşu İran oldu. Orada Yermakov saysız-hesabsız etnoqrafik fotoşəkillər çəkdi. Onların bir qismi Cənubi Azərbaycanın məişətini əks etdirirdi. Nümunə kimi Təbriz sakinlərini təsvir edən iki şəkili göstərmək olar: Rus sənətkarının məharətinə heyran qalan Qacar dövlətinin hökmdarı Nəsrəddin şah onu özünün şəxsi fotoqrafı təyin etmişdir. D. Yermakovun yeni ölkələri görmək istəyi, orada yaşayan xalqların adət-ənənələrini öyrənmək həvəsi, yerli əhalinin həyatı və məişətini, sənət və peşə adamlarını, ayrı-ayrı zümrələrə mənsub insanları fotoşəkillərdə əks etdirmək arzusu onun yolunu yaxın və uzaq məmləkətlərdən – Krım, Türkiyə, Orta Asiya və Yaxın Şərqdən saldı. O, çalışdığı sahədə dövrünün ən qabaqcıl texniki vasitələrindən istifadə edir, hətta özü yeni cıhazlar düzəltməyə cəhd göstərirdi. Bu isə şübhəsiz ki, çəkdiyi şəkillərin keyfiyyətini artırırdı. Artıq 1874-cü ildə D.Yermakov Fransa Fotoqrafiya Cəmiyyətinin mükafatına layiq görülmüşdü. 1878-ci ildə isə o, Parisdə

to travel across different countries. The first country he had visited in 1970's was Iran, where Yermakov had taken a lot of ethnographic photos. Part of the photographer's Persian portfolio was dedicated to a daily life of Southern Azerbaijan, including two photos showing residents of Tabriz.

Talent of the Russian photographer had admired the king Naser al-Din Shah Qajar, who appointed Yermakov to the position of his personal photographer.

Desire to visit new countries, study their traditions and everyday life, and depict people of different occupations and classes, had taken Dmitri to the various near and far-abroad regions, including Crimea, Turkey, Middle Asia and Near East. The fact that Yermakov always used the most modern technologies and even attempted to invent new staff by himself, conditioned the best possible quality of his multiple works.

In 1874, D. Yermakov had been awarded a prize of SFP (Société française de photographie - French Photographic Society). Four years later his photos were manifest-

keçirilən Ümumdünya sərgisində iştirak etmişdir. Sonrakı illərdə təltiflərinin sayı durmadan artırdı. Qafqazlı fotoqraf 1882-ci ildə Moskvada təşkil edilən XV Ümumrusiya Bədii Sənaye Sərgisində "iri ölçülü əla fotoqrafik təsvirlər"ə görə sərginin bürünc medalı ilə təltif olunmuşdu, İranda, Osmanlı dövlətində, İtaliyada və b. ölkələrdə keçirilən tədbirlərdə mahir ustad fotoqraf otuzdan çox mükafata layiq görülmüşdür. D.Yermakov ardıcıl olaraq bir neçə nüfuzlu elmi quruma – Rus Arxeologiya Cəmiyyətinə (1881), Tiflis İncəsənətin Təşviqi Cəmiyyətinə (1897), İmperator Moskva Arxeologiya Cəmiyyətinin Qafqaz şöbəsinə (1907) həqiqi və fəxri üzv seçilmişdi. 1896-cı ildə D.Yermakov 25 556 adi və stereoskopik neqativ əsasında "Qafqaz, İran, Türkiyənin Avropa və Asiya hissəsinin mənzərələri və surətlərinin kataloqu"nu dərc etdirdi. 1901-ci ildə çapdan çıxan topluda əvvəlki nəşrdə olmayan yeni təsvirlər işıq üzü gördü. Ümumiyyətlə, kataloqun 127 albomuna Cənubi və Şimali Qafqazda, Türkiyədə çəkilən fotoşəkillər daxil edilmişdir. Bundan başqa, 1902-ci ildə nəşr edilən nəfis tərtibatlı "Qafqazın aynası" albomuna bu diyarın 36 fotoşəkli salınmışdı. 1903-cü ildə Sankt-Peterburq Əlahəzrət İmperator III Aleksandr Muzeyi nəzdində açılan Qafqaz şöbəsi ilk ekspozisiyası üçün D.Yermakovdan 500 fotoşəkli satınalmışdır. 71 il ömür sürmüş istedadlı sənətkar D.Yermakov 1916-cı ildə Tiflis şəhərində vəfat etmişdir.

D.Yermakovun zəngin irsi arasında Şimali və Cənubi Azərbaycanda çəkilən çoxlu fotoşəkillər xüsusi yer tutur. Onların böyük bir qismi Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli Mənbələr Fondunun kolleksiyasında qorunub saxlanılır. Bu şəkillərin əksəriyyəti etnoqrafik səciyyə daşıyır. Sənədli Mənbələr Fondununda mühafizə edilən, yalnız Azərbaycana deyil, Qafqazın digər bölgələrinin həyat tərzini əks etdirən bu cür təsvirlərin

ed in the 3rd Paris World's Fair. Number of awards received by the artist continuously increased in the next years. In 1882, he became a bronze medal-winner of the XV All-Russian Arts-Industrial Exhibition for "perfect large-scale photographic images". Later he became an awardee more than 30 events organized in Iran, Ottoman Empire, Italy, etc. D. Yermakov had been elected regular and honorary member of the Imperial Russian Archaeological Society in 1881, Tiflis Arts Promotion Society in 1897, and Caucasus division of the Imperial Moscow Archaeological Society in 1907.

In 1896, D. Yermakov had published the "Catalogue of Photographic Views and Types of the Caucasus, Persia, European and Asiatic Turkey", which was based on the collection of 25560 regular and stereoscopic negatives. In 1901, the catalogue was published again with new photos which have not been included in its' first edition. Among the Catalogue's 127 albums, there are many photos taken in Southern and Northern Caucasus and Turkey. 32 more photos of the region were included in the album named "Caucasus mirror" and published in 1902. In 1903, 500 photos had been purchased by the Russian Museum of His Imperial Majesty Alexander III, in which they had formed a basis for the Caucasus division's first exposition.

D. Yermakov died in 1916 in Tiflis, after 71 years of interesting and fruitful life.

Ranking place in the rich legacy of D. Yermakov is occupied by the photos taken in Northern and Southern Azerbaijan. A great part of these photos is stored in the collection of the Fund of Documental Sources established under the National Museum of History of Azerbaijan.

There are 235 mainly ethnographic photos in the collection, all taken in different years in Azerbaijan and other parts of the Caucasus region. With every single item deserving to be called the arts masterpiece,

ümumi sayı 235 ədəddir. Sənət əsərləri olan bu fotoşəkillərdə müxtəlif mövzular, o cümlədən ayrı-ayrı zümrələrə mənsub insanlar, peşə sahibləri təsvir edilmiş, müxtəlif məişət məqamları öz əksini tapmışdır. Azərbaycanda yaşayan azsaylı xalqların milli geyimli nümayəndələrinin təsvirləri etnoqrafik baxımdan maraq oyadır. 2010-cu ildə Niderland Krallığı səfirliyinin Milli Azərbaycan Tarixi Muzeyinə hədiyyə etdiyi 90 fotoşəkildən ibarət kolleksiya məzmunca əvvəl qeyd etdiyimiz təsvirlərdən fərqlənir. Burada Bakıda və ölkəmizin başqa guşələrində çəkilən müxtəlif mənzərələri görmək olar. Bakıya aid şəkillərin əksər hissəsi neft mədənlərini əks etdirir. D.Yermakovun əsərlərindəki həyatın bu donmuş anları zəmanəsinin əyani şəhadətidir. Onun fotolları arasında Şuşa, Muğan, Quba, Şəki, Şamaxı, Gəncə, Naxçıvan və digər Azərbaycan şəhərlərinin də maraqlı görüntüləri az deyildir.

portfolio includes portraits of people from different social and occupational classes, as well as documentary photos depicting an everyday life.

Particularly valuable from the ethnographic viewpoint are the portraits of small-numbered indigenous people representatives dressed in traditional clothing.

In 2010, Embassy of Kingdom of the Netherlands had presented a collection of more than 90 photographs to the Museum. Being different from the portfolio described above, photos in the collection include various sceneries of Baku and Azerbaijan, mainly Baku oil fields and views of Shamakhi, Shaki, Ganja, Mughan and Shusha. Moments of life that are frozen on the photos of D. Yermakov, are the visual witnesses of their epoch.









9169. Баку. Набережная и дѣвичья башня маякъ. 66.




18341. Баку. Минаретъ и часть города. 422.


№ 5149. Баку. Общій видъ Ханскаго дворца.


[illegible] Баку. [illegible]


18344. Баку. Крепостныя ворота съ барельефами бычачей головы и льва. 425.


10027. Баку. Соборъ. 101


№ 3307. Баку. Соборъ у крѣпостныхъ воротъ.


12721. Баку. Улица съ парапета. 259


9811. Баку. Деревня въ окрестности. 77.


№ 3064. Баку. Общій видъ гавани съ кладбища.


Баку. Набережная 47


№ 8876. Баку.


12592. Баку. Базаръ: продавцы сѣмянъ, канталовъ и пряностей. 1019.


№ 3309. Баку. Агенство и пристань „Кавказъ и Меркурій". 46


Баку. Ханская крѣпость.


12587. Баку. Группа верблюдовъ. 1044.


Бакинскія арбы. 1277.


№ 4375. Шуша-кале (Шушинская крепость).


02. Закавказ. желѣз. дорога. Башня отъ комаровъ на станціи Пойлы.


№ 7295. Елисаветополь. Два минарета на площади.


17773. Мугань. Петропавловка. Паромъ баржа на р. Куръ 46.


Куба. Общій видъ города, моста и садовъ. 91.





9749. Нуха. Ханскій дворецъ. Фасадъ въ перспективѣ. 75.



13508. Нухинскаго уѣзда. Монастырь Кишъ. 143.





5926. Горскій. татаринъ у надгробнаго памятн



18244. Агъ-дашъ. Торговля арбузами, айвою и циновками. 1555.



11611. Шемаха. Верхняя часть города съ Хилейнаго кладбища. 31



2157. Шемаха. Шихминазъ мечеть.



11591. Шемаха. Православный соборъ. Развалившiйся куполъ. 1



11620. Шемаха. Бараки Комитета, помощи пострадавшимъ. 30



11606. Шемаха. Джума и Шихмеваз мечети и развалины домовъ. 16


538. Шемаха. Вывариваніе коконовъ


Елисаветполь. Чайная.




№ 6346. Кюрдамиръ З. Ж. Д. Инженеры и рабочіе при постройкѣ.


№ 7296. Елисаветополь. Развалины стараго моста.



10904 Ленкоранъ. Группа персовъ на базарѣ 893.



9762. Нуха. Мектебъ. Cунитское мусульманское училище. 673.

“Naxçıvanlı xanın, yaxud bəyin zövcəsi” adlanan aşağıdakı iki şəkilin öz maraqlı tarixcəsi var.




Tədqiqatçı Musa Quliyev bu məsələni araşdıraraq, aşağıdakı məlumatı verir: “Dmitri Yermakov dəfələrlə Naxçıvana gəlib və keçmiş cəbhə dostları general İsmayıl xanın, general-mayor II Kəlbalı xanın və onun oğlanlarının – Rəhim xanın, Cəfərqulu xanın qonağı olub. Və onların, həmçinin ailə üzvlərinin fotoşəkillərini çəkib. Hətta Naxçıvanın bir çox ziyalılarının da fotoşəkillərinin Yermakova məxsusluğu fotoqrafın imzasından və fotonun arxasındakı ünvandan bilinir. Qeyd edək ki, Əşrəf ağanın və onun oğlu Əmirsuvar bəyin şəxsən tanıyıb dostluq etdikləri Yermakov onların da fotoşəkillərini çəkib. Həmin fotoşəkillər onların ailə arxivlərində qorunur. Dmitri Yermakovun çəkdiyi fotoşəkillərdən əlavə olaraq ikisinin kimliyi tapıla bildi. Onların hər ikisi Milli Azərbaycan Tarixi Muzeyində “Naxçıvanlı qadınlar” kimi nümayiş etdirilir. Onlardan biri Cəfərqulu xan Naxçıvanskinin

For example, there is a story behind two photos named “Wife of the Khan or Bey of Nakhchivan”.




Having studied both photos, researcher Musa Guliyev concluded:

“Many times, Dmitri Yermakov had visited Nakhchivan, where he was on a visit to his old comrades in arms, general Ismayil Khan, major general Kalbali Khan II, and his sons – Rahim khan and Jafargulu khan. During his visits, Yermakov took photos of his friends and their family members, as well as many other honourable people of Nakchivan. Authorship of these photos can be easily established from the photographer’s signature and address printed on the rare sides of the photos. It should be noted that Yermakov took photos of his friends Ashraf agha and his son Amirsuvar bey, and that today these photos are stored in the family archives. We also managed to establish names of two more people from the Yermakov’s portraits, both named “Women of Nakhchivan” and exposed in the Museum. One of the portrayed ladies

ikinci həyat yoldaşı Bəyim Kəngərlinin fotoşəklidir. Bəyim Kəngərlinin fotosunu Cəmşid xan Naxçıvanskinin dayısı Həsən xan İrəvanskinin Türkiyədə saxlanılan şəxsi albomununköməkliyi ilə dəqiqləşdirdik"[1].

Muzey fondunun kolleksiyalarında oxşar annotasiyası olan üç fotoşəkil mühafizə edilir.

D.Yermakovun çəkdiyi şəkillər dövrün məişəti, ayrı-ayrı əyalətlərin təsərrüfat sahələri, şəhər və kənd əhalisinin həyat tərzi barəsində təsəvvür yaratmağa imkan verir. Həmin təsvirlər əsasında azərbaycanlıların məşğuliyyətinə dair müəyyən qənaətə gəlmək mümkündür.

Ayrı-ayrı peşə sahiblərinin fotoşəkilləri Dmitri Yermakovun kolleksiyasının mühüm hissəsini təşkil edir. O, el-obaları, şəhər və kəndləri gəzir, bazarlara, emalatxanalara, dükanlara girir, müxtəlif sosial təbəqələrə mənsub insanlara rast gəlirdi. O dövrün iqtisadi həyatında sənətkarlıq, kiçik ticarət, xidmət sahəsində fərdi məşğuliyyət əhəmiyyətli yer tuturdu. Təsadüfi deyil ki, həmin peşələrin təmsilçiləri tez-tez Yermakovun fotoaparatının obyektivinə düşürdü.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində sıçrayış müşahidə edilirdi. Həmin inkişaf kənd təsərrüfatı və onunla bağlı sahələrdə də özünü büruzə verirdi. Bu amil Dmitri Yermakovun da nəzərindən qaçmadı.

Bu dövrdə texniki yeniliklər meydana gəlir, yol infrastrukturu surətlə inkişaf etdirilir, mühərrikli nəqliyyat vasitələri icad olunurdu. Bununla yanaşı dəvə karvanları ilə yük daşınması əhəmiyyətini itirmirdi. Şəhər küçələrində, bazarlarda, çöllərdə tez-tez dəvələri və onların belində oturan və ya yanında yeriyən çarvadarları gərmək olardı.

XIX əsrin ikinci yarısında Azərbaycanda

[1]*M. Quliyev. Fotoqraf Dmitri Yermakovun yaradıcılığında Naxçıvan mövzusu. // "Şərq qapısı" qəzeti, 30 noyabr 2016, s. 3.*

was Bayim Kangarli - the second spouse of Jafargulu khan Nakhchivanski. We could establish the lady's identity with the help of personal album of Hasan Khan Irevanski – uncle of Jamshid Khan Nakhchivanski. The album is in Turkey" [1]. There are three more photos with similar annotations stored in the Fund's collection.

Photos by D. Yermakov help a lot with creating an understanding of the epoch's everyday life, fields of human activity, and *modus vivandi* of urbanites and villagers. Based on these photos, conclusion can be drawn as to daily life and interests of the Azerbaijani people. Portraits of different profession representatives constitute an important part of Yermakov's portfolio. Dmitri was an often visitor of different towns and villages, where he went to bazars, workshops and stores, and met with representatives of different social classes. At that time, craftsmanship, small-scale trading and sole proprietorship used to be an important part of the region's economic life. Therefore, it is no wonder that representatives of different professions had been frequent heroes of the Yermakov's photos.

In the late XIX – early XX centuries Azerbaijan had lived a period of rapid economic growth, which was observed in the agricultural sector, too. All these progressive changes haven't been ignored by Dmitri Yermakov.

That period had been marked with massive introduction of technical innovations, rapid development and improvement of the road infrastructure, invention and popularization of automobiles. At the same time, in spite of all these technical innovations, camel caravans still remained a widely practiced method of goods transportation. Therefore, it was quite common to meet camels and their drivers in the streets of

1 *M. Guliyev. Nakhchivan Motives in the Arts of Dmitri Yermakov. // "Şərq qapısı" newspaper, November 30, 2016, s. 3.*

neft sənayesinin inkişafı, bu sahədə baş verən yeniliklər geniş müşahidəçilik qabiliyyətinə malik olan D.Yermakovun çəkdiyi fotoşəkillərdə əksini tapmışdır.

Niderland Krallığının səfirliyinin Milli Azərbaycan Tarixi Muzeyinə hədiyyə etdiyi fotoşəkillərin əksəriyyəti Bakı şəhəri və ətrafının, habelə Azərbaycanın digər qədim şəhərlərinin müxtəlif görüntülərini əks etdirir. Onların çoxu bundan əvvəl Muzeyin Sənədli Mənbələr Fondunda mühafizə edilən əsli materialla üst-üstə düşsə də, bəzən yenilərinə rast gəlmək olur. Misal kimi Şuşa şəhəri və qalasının, Şəki Xan Sarayının zahiri və daxili təsvirlərinin, Hacı Zeynalabdin Tağıyevə məxsus neft mədəninin, Bakıda fəaliyyət göstərmiş iri neft sahibkarı Konstantin Zubalov və varislərinin mülkünün görüntülərini və s. göstərmək olar. Dmitri Yermakovun təqdim edilən sənət əsərləri tarixin əyani sənədləri sayıla bilər. Bu nəşrdə yer alan fotoşəkillər istedadlı sənətkarın Milli Azərbaycan Tarixi Muzeyinin fondunda saxlanılan zəngin materialının təqribən yarısıdır. Lakin onlar vətənimizin həmin dövrün gerçəkliyinə dair kifayət qədər dolğun təsəvvür yaratmağa imkan verir.

Əksəriyyəti annotasiyalı olan bu fotoşəkillərdə ölkəmizin yerli əhalisi bəzən “tatar - татарин, татарка”, yaxud “iranlı, fars - перс”, bəzən isə “azərbaycanlı - азербайджанец” adlandırılırdı.



Azerbaijan towns.

Oil sector development and progress of the second half of XIX century had become an important part of the portfolio of Dmitri Yermakov.

Majority of the photos presented to NMHA by the Netherlands government are the sceneries of Baku, its’ growing suburbs and the other ancient towns of Azerbaijan. In most cases these photos already had their original copies stored in the Fund of Documental Sources, but there are also many new photos, including those that depict castle of Shusha, exteriors and interiors of Shaki Khans Palace, oil field possessed by Haji Zeynalabdin Taghiyev, dwelling house of Konstantin Zubalov – one of the Baku’s rich oil barons, etc.

Photo portfolio of Dmitri Yermakov can be confidently rated as an important visual material which showcases the described historical epoch. Photos that are included in this publication, are just the half of the famous photographer’s portfolio stored in the Museum’s funds. Nevertheless, even with these photos it is possible to form an understanding of the described period’s realities. Most photos are accompanied by the annotations, in which local people of Azerbaijan are usually named “Tatars”, sometimes “Persians, Iranians” and “Azerbaijanis”.



13235. Татарка. 1312.



№ 7002. Татаринъ 513 съ женой Сеидъ-Гусеи



№ 8075. Бакинскій татаринъ. 415.



13727. Татаринъ. 1423.



9757. Нуха. Мирабъ Гаджiевъ. Нухинецъ. 668.



№ 6041. Шемахинская персiанка. 395



10.614 Татарская семья Борчалин. уѣзда 933



9758. Нуха. Мирза Иліасъ. Нухинскій поэтъ. 669.



№ 7354. Дервишъ (с).575



72. 1848. Адербейджанецъ Муша изъ Персіи.



№ 7003. Татарка Эмине-Ханымъ. 569



№ 5927. Горскіе татары и дѣвушки.







№ 7217. Татары Борчалинскаго уѣзда. 518



9760. Нуха. Подковщикъ. 671.


11714. Тавризъ. Двѣ персидскія женщины. 952.








№ 2481. Кубинскій уѣздъ. Селеніе Лезе
2481


№ 5268. Далакъ (бородобрей). 83.


9754. Нуха. Мастерская кошъ (татарск. башмаки). 665